**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**TÜNZALƏ ƏDALƏT QIZI CƏLİLOVA**

# KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ ÖZÜNƏNƏZARƏT BACARIQLARININ FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN SİSTEMİ

5804.01- Ümumi pedaqogika, pedaqogikanın
və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim
edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: **Şahin Tağı oğlu Tağıyev**
*pedaqogika üzrə elmlər doktoru, professor*

Rəsmi opponentlər: **Akif Nurağa oğlu Abbasov**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, əməkdar müəllim*

**Yaqut Tosif qızı Rzayeva**,
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** Sumqayıt Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrası

Müdafiə «_07___»__03______2014-cü il tarixdə, saat ____ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan: AZ-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 34.**

**Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.**

**Avtoreferat «____» ___________ 2014-cü ildə göndərilmişdir.**

Dissertasiya Şurasının
elmi katibi: **K.R. Quliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Təlim prosesində aldıqları nəticələrin doğruluğunu şagirdlərin özlərinin əsaslandırması, sübut etməsi isbatın sadə formasıdır. İsbatetmə isə mürəkkəb təfəkkür prosesidir. Özünənəzarət şagirdlərdən təfəkkürün gərginləşməsini tələb edir, fikri dağınıqlıq meydana gəlir. Fikri dağınıqlıq ən çox kiçik yaşlı məktəblilərə xasdır. Deməк, özünənəzarət bacarıqlarının ibtidai sinif şagirdlərində formalaşdırılması uşaqların fənlərin tədrisi zamanı fikri dağınıqlığına səbəb olub, onların öyrənilən tədris materiallarına marağını azalda bilər. Bu isə təlimin keyfiyyətinin aşağı düşməsinə səbəb olar.

«Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu)»nda özünənəzarətlə bağlı deyilir: «Şagird problemlərin riyazi həlli prosesində öz düşüncələrinin və fikirləşmə prosesinin daimi monitorinqini aparmalıdır. Bu növ bacarıqlara aiddir:

- problemin həlli prosesi qurtarana kimi istifadə etdiyi mühakimə proseslərinin şüurlu monitorinqini aparır;
- problemin təqdimatının alternativ yollarını axtarır;
- cavabların məqsədəmüvafiqliyini və ağlabatanlığını yoxlayır»[1].

Özünənəzarət bacarıqlarının kiçikyaşlı məktəblilərdə formalaşdırılmasının çətinliyindən onun həll olunmazlığı nəticəsinə gələnlərə həm elmi-pedoqoji ədəbiyyatda, həm də məktəb praktikasında rast gəlinir.

Deyilənləri ümumiləşdirərək belə bir qənaətə gəlmək mümkündür ki, fənlərin tədrisi prosesində özünənəzarət bacarıqlarına, alınmış əqli nəticələrin düzgünlüyünün sübut olunmasına ibtidai sinif şagirdlərində tələbatın yaradılması sadə və asan deyildir. Lakin məsələnin çətinliyi, onun həll olunması zəruriyyətini və həll imkanlarını  inkar etmir. Əksinə, məsələnin səmərəli həllini tələb edir.

Psixoloqlardan A.V.Zaporojes, U.V.Ulenkova, habelə Rusiya Dövlət Təhsil Akademiyasının Psixologiya İnstitutu əməkdaşları tərəfindən aparılmış geniş tədqiqatlar sübut edir ki, uşaqlarda ayrı-ayrı fikri nəticələr çıxarmaq bacarığı, onun başa düşülməsi, mənimsənilməsi və alınan nəticələrin doğruluğunu əsaslandırmaq təşəbbüsləri məktəbəqədər yaş dövründən başlayır. Fikri nəticələr çıxarmaq bacarığı isə düzgün nəticəyə gəlmə prosesinin ilk

[1] Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər). Bakı, 2013, s. 14.

zəruri elementi, mərhələsidir. Düzgün qənaətə gəlmə prosesinin sonrakı mərhələsi isə çıxarılmış fikri nəticəyə nəzarət etmək, onun doğruluğunu yoxlamaq bacarığından ibarətdir. Hər iki mərhələ biri-birilə sıx vəhdətdədir. İkinci mərhələ birinci mərhələni tamamlayır.

M.M.Vaxruşevin tədqiqatlarında isə sübuta yetirilir ki, fikri nəticələr çıxarmaq və onu praktik şəkildə yoxlamaq vərdişlərinin mənimsədilməsi sahəsində ibtidai sinif şagirdləri ilə səmərəli işlər təşkil etmək mümkündür. Azərbaycan pedaqoq-psixoloqları (M.Mehdizadə, N.Kazımov, Ə.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, Ə.Paşayev, A.Abbasov, F.Rüstəmov, R.Əliyev, H.Əlizadə, L.Qasımova, Ş.Tağıyev, M.İsmixanov və s.) özünənəzarət bacarıqlarının formalaşması ilə bağlı problemləri xüsusi tədqiqat predmetinə çevirməsələr də, əsərlərlərində bu və ya digər şəkildə məsələyə toxunmuşlar.

Beləliklə, bu arqumentlər, yəni ibtidai siniflərdə təlim və tərbiyə zamanı özünənəzarət bacarıqlarının, o cümlədən aldıqları nəticələrin doğruluğunun şagirdlərin özləri tərəfindən sübut olunmasının çətinliyi, onun öyrədilməsi məqsədlərinin və səmərəli yollarının ibtidai sinif müəllimlərinə aydın olmaması, problemin pedaqoji ədəbiyyatda öz geniş həllini tapmaması təlim prosesində aşağıdakı məsələnin xüsusi didaktik problem kimi irəli sürülməsini zərurətə çevirir: İbtidai sinif şagirdlərində fənlərin tədrisi zamanı aldıqları nəticələrin doğruluğunu sübut etməyə tələbat tərbiyə etmək və bu tərbiyə əsasında iş sistemini qurmaq mümkündürmü? Əgər mümkündürsə, bu, ibtidai təlim prosesinin keyfiyyətcə yüksəlməsinə nə dərəcədə təsir göstərər?

**Tədqiqatın obyekti** kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması prosesidir.

**Tədqiqatın predmeti** kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması üzrə işin sistemidir.

**Tədqiqatın məqsədi** kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarını formalaşdırmağın imkanlarını, vasitələrini və yollarını müəyyənləşdirməkdən və sistemləşdirməkdən ibarətdir.

**Tədqiqatın fərziyyəsi:**

Şagirdlərdə özünənəzarət bacarıqlarının formalaşdırılması aşağıdakı şərtlər daxilində mümkündür:

a) I-IV siniflərdə ana dili, riyaziyyat, Azərbaycan dili fənlərinin təlimi prosesində müəllimlər pedaqoji ustalıq, nəzəri və metodik hazırlıq nümayiş etdirərlərsə və şagirdlərin təlim fəaliyyəti diqqət mərkəzində dayanarsa;

b) kiçikyaşlı məktəblilərin idrak və yaradıcı fəallığına, idrak müstəqilliyinə lazımi şərait yaradılarsa.

**Tədqiqatın məqsədinə və fərziyyəsinə əsasən aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:**

1) ibtidai siniflərdə şagird özünənəzarətinin elmi-nəzəri mahiyyətini aydınlaşdırmaq;

2) problem baxımından elmi-pedaqoji ədəbiyyatı və məktəb təcrübəsini öyrənmək, təhlil edib ümumiləşdirmək;

3) kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılmasına verilən ümumdidaktik tələbləri müəyyənləşdirmək;

4) ana dili, riyaziyyat, həyat bilgisi və Azərbaycan dili fənlərinin təlimi vasitəsilə şagirdlərdə özünənəzarət bacarıqlarının formalaşdırılmasının imkanlarını və səmərəli yollarını aşkara çıxarmaq;

5) kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması imkanlarının və yollarının təlim prosesinin keyfiyyətinə təsirini eksperiment vasitəsilə yoxlamaq.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq olunan prinsiplərin, metodların və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları.** Dissertasiyada nəzərdən keçirilən problem aşağıdakı tədqiqat metodlarından istifadə olunaraq həll edilmişdir:

a) *Ədəbiyyatın təhlili.* Tədqiq olunan məsələ ilə əlaqədar ibtidai siniflər üzrə riyaziyyat, ana dili, həyat bilgisi və Azərbaycan dili üzrə fənn kurikulumları, dərslikləri, elmi-metodik, pedaqoji və psixoloji ədəbiyyat öyrənilmiş və təhlil edilmişdir.

b) *Məktəb təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi.* Respublikanın 47 şəhər və kənd məktəblərində çalışan 56 sinif müəlliminin 1120 şagirdlə apardıqları iş öyrənilmişdir.

c) *Müşahidə.* Tədqiq olunan məsələ ilə əlaqədar qabaqcıl iş təcrübəsi, müəllim və şagirdlərin fəaliyyəti müşahidə edilmiş və müşahidə materialları təhlil olunaraq ümumiləşdirilmişdir.

ç) *Müsahibə.* Tədqiqat aparılarkən respublikanın görkəmli pedaqoq, psixoloq və metodist alimlərilə, təhsil şöbələrinin metodistləri ilə, ibtidai sinif müəllimləri və tərbiyəçilərlə müsahibələr, fikir mübadiləsi aparılmış, faydalı təklif və tövsiyələr nəzərə alınmışdır. Həmçinin şagirdlərlə ayrı-ayrılıqda və qrup şəklində söhbətlər aparılmış, təhlil edilərək ümumiləşdirilmişdir.

d) *Sorğu.* fərdi və kollektiv sorğular respublikanın 29 şəhər və kənd məktəblərinin 864 şagirdini əhatə etmişdir. Cavablar təhlil edilmiş, qruplaşdırılmış və dissertasiyada əks olunmuşdur.

e) Pedaqoji eksperiment 3 mərhələdə (müəyyənedici, öyrədici və yoxlayıcı) Gəncənin 1, 5 və 28, Göy göl rayonu Topal Həsənli kənd tam orta məktəbində, Şəmkir rayonu Seyfəli qəsəbə məktəblərində 2007-2013-cü illərdə aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, kiçikyaşlı məktəblilərdə ilk dəfə olaraq özünənəzarət bacarıqlarının formalaşdırılması üzrə işin sistemi yaradılmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması üzrə iş sisteminin məzmunu, onun yeni imkan və yollarını müəyyən edən müddəalar pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması ilə bağlı elmi-metodik ədəbiyatın təhlili, mövcud məktəb təcrübəsinin ümumiləşdirilməsi və irəli sürülən nəzəri fikirlər ibtidai sinif müəllimlərinə praktik kömək göstərə bilər. Tədqiqatın materiallarından ali pedaqoji məktəblərin «İbtidai sinif müəllimliyi» ixtisasında mühazirə və seminar məşğələlərində istifadə etmək, dərslik və dərs vəsaitlərinin hazırlanmasında yararlanmaq olar.

**Müdafiəyə təqdim olunan müddəalar:**

1. İbtidai siniflərdə təlim profesinin səmərəliliyinin yüksəldilməsində kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması mühüm rol oynayır.

2. Təlim prosesində, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə kiçikyaşlı məktəblilərə özünənəzarət bacarıqlarının aşılanması məktəbli şəxsiyyətinin formalaşmasının əsas şərtidir.

3. Kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması müəllimlə şagird arasında əks əlaqənin yaradılmasında, tədris materialının mənimsəmə dərəcəsi haqqında müəllimin obyektiv informasiya almasında, biliklərdəki nöqsanların üzə çıxarılmasında, öyrənmənin həcminin müəyyən edilməsində, müsbət motivasiyanın stimullaşdırılmasında, şəxsiyyətin mənəvi aləminin formalaşmasında mühüm rol oynayır.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın əsas ideyaları və nəticələri Gəncə Dövlət Universitetində müəllifin yerinə yetirdiyi illik elmi-tədqiqat işlərində, Gəncə Dövlət Universitetinin və Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun «Elmi əsərlər» məcmuələrində, «Humanitar elmlərin öyrədilməsinin aktual problemləri» ali məktəblərarası elmi əsərlər

məcmuəsində və Qazaxıstanın elmi–metodik məcmuələrində məqalələr şəklində nəşr olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, səkkiz yarımfəsli əhatə edən iki fəsildən, nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

«Giriş»də tədqiqatın aktuallığı əsaslandırılır, obyekti və predmeti, məqsədi, elmi fərziyyəsi, vəzifələri və metodoloji əsası açıqlanır, eləcə də iş prosesində istifadə olunmuş tədqiqat metodları, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılmış müddəalar, nəticələrin tətbiqi barədə yığcam məlumat verilir.

Dissertasiyanın I fəsli «**Şagirdlərə özünənəzarət bacarıqlarının aşılanmasının nəzəri və praktik vəziyyəti**» adlanır. Fəslin «*İbtidai siniflərdə şagird özünənəzarətinin elmi-nəzəri mahiyyəti*» adlı birinci yarımfəslində ibtidai siniflərdə şagird özünənəzarətinin elmi-nəzəri mahiyyətindən bəhs edilir. Mahiyyətə aydınlıq gətirmək üçün pedaqoji, psixoloji və metodik ədəbiyyat təhlil olunur və ümumiləşdirilir.

«Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğət»də deyilir: «Özünənəzarət – çoxmənalı məfhumdur. Pedaqoji prosesdə nəzarətin müxtəlif üsulları şagirdlərdə özünənəzarət bacarıqlarının inkişafına yönəldilir. Nəticədə şagird yol verdiyi nöqsanları tapmağa, onların səbəblərini öyrənməyə və səbəbləri aradan  qaldırmağa tədricən alışır».

Tədqiqat zamanı məlum oldu ki, «özünənəzarət» anlayışı bilavasitə «özünümüşahidə», «özünüruhlandırma», «özünütəlqin», «özünütənqid», «özünütərbiyə» anlayışları ilə bağlıdır. Bəzi müəlliflər bu anlayışları qarışdırmış, onların fərqli və oxşar cəhətlərini dəqiq ayırd edə bilməmiş, nəticədə özünənəzarət anlayışının pedaqoji mahiyyəti qeyri - müəyyən qalmışdır. Dissertasiyada göstərilir ki, təlim prosesində özünənəzarət zamanı şagird necə işlədiyinə, necə düşündüyünə, nə ilə məşğul olduğuna, öz psixoloji vəziyyətini daim müşahidə etməyə, özünün güclü və zəif cəhətlərini müəyyənləşdirməyə alışmalıdır. Müşahidə müntəzəm xarakter daşımalıdır. Öz müşahidəsinə də şagirdin öz nəzarəti və özünətələbi olmalıdır. Şagird özünə tənqidi yanaşmağı, təlim fəaliyyətində özünü göstərən nöqsanları etiraf etməyi bacarmalı, öz təşəbbüsü ilə məqsədyönlü şəkildə həmin qüsurları aradan qaldırmağa çalışmalıdır. Bu zaman özünəinamın və bu inamdan doğan özünüruhlandırmanın imkanlarından faydalanmalıdır.  Özünənəzarət zamanı özünü ruhlandırmanın müstəsna rolu vardır. Şagird öz müvəffəqiyyətinə inanmalı, nöqsanlarına görə ruhdan düşməməlidir. Müəllim şagirddə

nikbinlik meyillərinin, özünəinamın inkişafına xüsusi diqqət yetirməli, özünəinamsızlığın baş qaldırmasına yol verməməlidir.

Bu yarımfəsildə göstərilir ki, şagirdlərin təlim fəaliyyəti zamanı düzgün nəticəyə gəlmə prosesində özünənəzarətin (sübutetmənin) rolu onların çıxardıqları nəticələrin düzgünlüyünü və inkarolunmazlığını təsdiq etməkdən ibarət olmalıdır.

Təlim prosesində məktəblilər öz fikirlərini müxtəlif cümlələrlə ifadə edirlər. Həmin cümlələr məna etibarilə çox vaxt müxtəlif olsa da, onlar arasında bir ümumilik vardır. Bu ümumilik A.M.Pışkalonun qeyd etdiyi kimi, şagirdlərin müraciət etdikləri cümlələri (fikirləri) iki qrupa – doğru və doğru olmayan cümlələrə ayıraraq səciyyələndirməkdən ibarətdir. Doğruluğuna və doğru olmamasına bilavasitə hökm etmək mümkün olan cümlələr isə mülahizələr adlanır.

Deməli, birinci sinifdən başlayaraq, şagirdlər müxtəlif mülahizələrlə rastlaşır və təlim prosesində həmişə belə mülahizələrdən istifadə edirlər. Məsələn, «Bakı Azərbaycanın paytaxtıdır», «Meşələr payızda sarı dona bürünür», «10-5>2», «6+3<8», «a – qalın saitdir»«ot yaşıl rəngdədir», «otlar yazda göyərmir», «günəş çıxanda qaranlıq olur» və s.

Qeyd edək ki, «6+3<8», «otlar yazda göyərmir», «günəş çıxanda qaranlıq olur» və s. mülahizələri doğru olmayan mülahizələr, yerdə qalan mülahizələr isə doğru olan mülahizələrdir.

Birinci sinifdən başlayaraq fənlərin tədrisində şagirdlər müntəzəm olaraq mülahizəli formada olan cümlələrdən istifadə edir, riyaziyyatda dəyişənlərə konkret qiymətlər verərək, Azərbaycan dili, ana dili, Həyat bilgisi fənlərində isə qeyri müəyyənlikləri aradan qaldıraraq, onları mülahizəyə çevirirlər. Məsələn, x<10, x+1=7, « Ana sözündə...sait var », « Kür çayı....dənizinə tökülür » və s.

Belə cümlələrin doğruluğuna və ya doğru olmadığına bilavasitə hökm etmək mümkün olmadığından onlar mülahizə deyil, lakin dəyişənlərin konkret natural qiymətlərində, nöqtələrin yerinə konkret sözlər yazdıqda bu cümlələr mülahizəyə (mənaca doğru və yaxud doğru olmayan cümləyə) çevrilir.

İbtidai sinif şagirdlərinin təlim fəaliyyəti zamanı özünənəzarətində, öz əqli nəticələrinin doğruluğunun sübut olunmasında silloqizmdən də istifadə edilə bilər.

Silloqizmi aşağıdakı ümumi sxem şəklində ifadə etmək mümkündür:

$$(M \to P,\ S \to M) \to (S \to P).$$

Burada M-orta termindir. S və P isə kənar terminlərdir. Göründüyü kimi, orta terminin funksiyası kənar terminlər arasında əlaqə yaratmaqdır.

Bunu bir mühakimə prosesi üzərində bir daha aydınlaşdıraq: Kür çayı Xəzər dənizinə tökülür, Gəncə çayı da Kür çayına tökülür. Deməli, Gəncə çayı Xəzər dənizinə tökülür. Burada orta termin «Kür çayı»dır. O, nəticəyə daxil olmadı. «Gəncə çayı» və «Xəzər dənizi» kənar terminlərdir. «Gəncə çayı»- kiçik termin, «Xəzər dənizi»- böyük termindir.

Məntiq elminin kafi əsas qanununa görə, hər bir təklif (hökm) isbat edilməlidir, yəni təklif (hökm) elə güclü arqumentlər vasitəsilə əsaslandırılmalıdır ki, bu arqumentlər təklifin (hökmün) həqiqi olmasını qəti təsdiq etsin və onu təkzibolunmaz faktlarla əlaqələndirsin. Deməli, ibtidai sinif şagirdlərinin təlim fəaliyyəti zamanı düzgün nəticəyə gəlmə prosesində özünənəzarətin rolu onların çıxardıqları nəticələrin düzgünlüyünü və inkarolunmazlığını qəti təsdiq etməkdən ibarət olmalıdır.

I fəslin «*Problemin psixoloji əsasları*» adlı ikinci yarımfəslində problemin psixoloji əsasları diqqət mərkəzinə gətirilir. Elmlərin əsasının mənimsənilməsi üçün lazım olan məntiqi biliklərin və bacarıqların bütün komponentləri, uşaqların istifadə etdikləri mühakimələrin, qərarların növləri, onların isbatının, təkziblərinin xüsusiyyətləri təhlilə cəlb olunur. Tədris materiallarının təhlili göstərir ki, onların bir çoxunun başa düşülməsi artıq birinci sinifdə nəzərdə tutulur. Biliklər sisteminin və alınmış nəticələrin düzgünlüyünün əsaslanmış məzmununa tərif verərkən, biz hər şeydən əvvəl şagirdlərin mənimsəmə imkanlarını araşdıran Azərbaycan və xarici psixoloq və pedaqoqların əldə etdikləri nəticələrə əsaslanmışıq.

Dissertasiyada elmi dəlillərlə sübuta yetirilir ki, kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə yalnız ayrı-ayrı hərəkətlərin həyata keçirilməsi deyil, həmçinin onların gedişinə və alınmış nəticələrə nəzarət sistemi də daxildir. Bu şagirdin mövcud fəaliyyəti ilə əvvəlcədən hazırlanmış fəaliyyət nümunələrinin («fəaliyyət proqramının») tutuşdurulması yolu ilə aparılır. Nəzarət əməliyyatı səhvlərin düzəlməsi və bütün fəaliyyətin təkmilləşməsi ilə başa çatır.

Dissertasiyada eksperimental yolla sübut olunur ki, şagirdlərə özünənəzarət bacarıqlarının aşılanması zamanı müəllim iki psixoloji cəhəti daim nəzərdə saxlamalıdır. Birinci halda şagird öz təlim fəaliyyətinin və onun nəticəsinin düzgünlüyünə əmin olduqdan sonra özü haqqında bədgüman olmamalı; ikinci halda, səhvlərini görüb bədbinliyə və ümidsizliyə qapılmamalıdır. Bu fikir onun öz qüvvəsinə inamını azaldar, təlim fəaliyyətinə mənfi təsir göstərər.

Fəslin üçüncü yarımfəslində «*Mövzu baxımından elmi-pedaqoji ədəbiyyatın təhlili*» aparılır. Məlum olur ki, tədqiqatçılar kiçikyaşlı məktəblilərə əsas təlim və tərbiyəvi fəaliyyət zamanı hər bir addımın və sonda aldıqla-

rı nəticələrin doğruluğuna nəzarət etməyin yollarını öyrətməyi qarşılarına məqsəd qoymadıqlarından həmin məsələnin həllinə də təşəbbüs göstərməmişlər.

Elmi-pedaqoji ədəbiyyatın təhlili belə nəticəyə gəlməyə əsas vermişdir ki, ibtidai siniflərdə şagirdlərə özünənəzarət priyomlarının mənimsədilməsi üzrə əvvəlki fənn proqram materialları tədqiqata cəlb edilməklə müəyyən araşdırmalar aparılıb və şagirdlərə özünənəzarət bacarıqlarının aşılanması metodikası (yalnız I sinif materialları əsasında) pərakəndə şəkildə hazırlanıb. Lakin hazırda bu metodika ibtidai siniflər üzrə mövcud fənn kurikulumunun və dərsliyin məzmununa uyğun gəlmir və onun tələbini ödəyə bilmir. Kiçikyaşlı məktəblilərdə yalnız riyaziyyatın tədrisi zamanı aldıqları nəticələrin doğruluğunu sübut etməyə tələbat tərbiyə olunmasına dair metodik ədəbiyyatda bir sıra təklif və göstərişlərə rast gəlinir. Lakin bu təklif və göstərişlər hələlik sistemsizdir. İbtidai sinif şagirdlərinə təlim zamanı öz nəticələrinə nəzarət bacarıqlarının formalaşdırılmasının didaktik imkanları ümumpedaqoji aspekdə (mövcud fənn kurikulumları əsasında) xüsusi şəkildə araşdırılmamışdır.

I fəslin dördüncü yarımfəslində «*Problem baxımından məktəbdə mövcud vəziyyətin təhlili*» verilir. Aşkar edilmişdir ki, ibidai sinif şagirdlərində fənlərin tədrisi prosesində özünənəzarət bacarıqlarını formalaşdırmaq mümkündür. Güman edilir ki, bu işə ilk dərslərdən də başlamaq olar. Cünki I sinfə gələn uşaqlarda ibtidai bilik və bacarıqlar olur (məsələn, əşyaların ölçüsünə görə qruplaşdırmaq, 2 əşyanı müqayisə etmək, əşyalar qrupunu saylarına görə müqayisə etmək, ətraf mühit haqqında məlumat, rənglər haqqında təsəvvür, həyat bilgisi məlumatları və s.). Bu ilkin bilik və bacarıqlar şagird özünənəzarəti, sadə nəticələrin düzgünlüyünü əsaslandırmaq üçün ilk mənbələrdir. Odur ki, fənlərin tədrisi zamanı ilk dərslərdən başlayaraq şagirdləri özünənəzarət bacarıqlarının formalaşdırılmasına hazırlaşdırmaq lazımdır. «Hazırlıq dövrü» dərsləri zamanı özünənəzarətin reallaşdırılması alınmış ilkin, sadə nəticələrin yoxlanılması, iki sonlu əşyalar qrupunun sayca (miqdarca) müqayisəsi, əşyaların ölçücə, rəngcə tutuşdurulması və s. yolu ilə aparıla bilər.

Dissertasiyanın II fəsli «**Kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırmasının imkan və yolları**» adlanır. Fəslin «*İbtidai sinif şagirlərində özünənəzarət bacarıqlarının formalaşdırılmasına verilən ümumdidaktik tələblər»* adlı birinci yarımfəslində məqsədyönlü müqayisənin ibtidai təlim zamanı şagird özünənəzarətinin başlıca vasitəsi olması ilə bağlı irəli sürülən fərziyyə yoxlanılır və doğruluğu sübuta yetirilir. Uzunmüddətli müşahidələrdən görünür ki, hazırda ibtidai siniflərdə bu mə-

sələ öz elmi-pedaqoji həllini tapmamışdır. Prof. N.M. Kazımovun tədqiqatlarının nəticələri də bunu sübut edir.

Bu yarımfəsildə öz nəticələrinə nəzarət etməyə şagirdlərdə tələbat tərbiyə etməyin didaktik əsasları da üzə çıxarılır, elmi şəkildə ifadə olunaraq əsaslandırılır.

Kiçikyaşlı məktəblilərin qazandıqları elmi bilik və bacarıqlara münasibəti təkcə bu və ya digər fənnin tədrisi zamanı deyil, bütün təlim prosesində çox mühüm məna daşıyır. Bu baxımdan şagirdlərin təlim prosesindəki əqli əməliyyatlarına, hər bir addımın və aldıqları nəticələrin doğruluğunu sübuta yetirməyə diqqət və fəallığını artırmaq lazımdır. Söhbət şagirdlərdə öz təlim fəaliyyətlərinə və aldıqları nəticələrin doğruluğuna möhkəm inamın əmələ gəlməsindən gedir. Belə bir inam təkcə riyaziyyat, Azərbaycan dili və ana dili fənlərindən və s. tədris materiallarının şüurlu mənimsənilməsi zamanı deyil, həm də onlarda elmi-məntiqi təfəkkürün təkrar tərbiyəsi prosesində zəruri şərtlərdən biridir.

«Hesablama vərdişlərinin formalaşdırılmasına diqqəti artıraq» adlı məqaləsində M.İ.Moro hesablama vərdişlərini formalaşdırmağın müasir medodikasını dörd prinsipial tələbdən ibarət hesab edir və bu tələblərdən birinin «özünənəzarət üzrə bilik və bacarıqların formalaşdırılmasına xüsusi diqqət» olduğunu qəbul edir.

Tədqiqatların nəticələri göstərdi ki, uşaqların bir qismi məktəbə təsviri incəsənət, musiqi və nəğmə, əmək hazırlığı və fiziki tərbiyə üzrə də sadə təsəvvürlərlə gəlirlər.

Bütün bunları ibtidai sinif müəllimi nəzərə almalı, uşaqların müvafiq fənlər üzrə sadə təsəvvürlərini qruplaşdırmalı, tədricən həmin təsəvvürləri biliklər şəklinə elə salmalıdır ki, həmin biliklər növbəti təlim fəaliyyətinin doğru olub-olmadığını yoxlamaqda, alınmış nəticələrin doğruluğunu əsaslandırmaqda inandırıcı arqument rolunu oynaya bilsin.

Bunları nəzərə alaraq, ibtidai sinif müəllimi müntəzəm olaraq əsas diqqəti həm şagirdlərin sadə bilik, bacarıq və vərdişlərinin tamamlanması və sistemləşdirilməsinə, həm də onlarda çıxardıqları sadə nəticələrin doğruluğuna şübhənin oyadılmasına və şübhələrin yoxlanılmasına yönəltməlidir. Şagirdlərin təlim fəaliyyəti zamanı aldıqları sadə nəticələrin doğruluğuna şübhə oyadılması müxtəlif fənlərin tədrisində müxtəlif formalarda aparıla bilər. Məsələn, ibtidai siniflərin ilk riyaziyyat dərslərində şagirdlərdə çıxardıqları nəticələrin doğruluğuna şübhə oyadılması bilavasitə tərkibində olan elementlərin sayına görə iki əşyalar qrupunun müqayisəsini tələb edən praktik çalışmalar üzərində aparıla bilər. Müqayisə olunan əşyalar qrupu əvvəlcə əyani şəkildə götürülür və onlar fəza tutumuna görə bir-

birindən kəskin fərqlənir. Lakin qruplardakı əşyalar elə formada olur ki, xarici görünüşcə biri o birindən çox görünsə də, əslində həmin qrupda az əşya olur. Əşyalar qrupu əvvəlcə gözəyarı müqayisə edilir. Müqayisə zamanı şagirdlər əşyalar qrupunun fəza tutumuna əsaslanır. Hansı qrupda çox əşya görünürsə, həmin qrupdakı əşyaların çoxluğunu güman edirlər. Bu, şagirdlərin səhv nəticələr çıxarmasına səbəb ola bilir. Odur ki, məktəblilərə çıxardıqları nəticələrin doğru olub-olmadığını yoxlamaq təklif edilir və onların diqqəti müqayisəsi aparılan iki əşyalar qrupu arasında müxtəlif praktik yollarla yaradılan birqiymətli uyğunluğa yönəldilir. Müqayisə olunan əşyalar qrupu əyani şəkildə verildikdə şagirdlər hər qrupdan bir əşya götürür və onları cütləşdirib bir kənara qoyur. Bu əməliyyat qrupların birində əşya qurtarana kimi davam etdirilir və hansı qrupda artıq əşya qalırsa, onun çox olduğu dəqiq müəyyənləşdirilir.

Ümumiyyətlə, bu prosesdə şagirdlər iki əşyalar qrupu arasında birqiymətli uyğunluq yaratmaq bacarığını gözəyarı müqayisələrin nəticələrinə nəzarət vasitəsi kimi mənimsəyirlər. Onluq dairəsində toplama və çıxma əməllərinin icrası zamanı nəticələrin doğruluğunu sübuta yetirmək bacarıqlarının verilməsi iki əşyalar çoxluğunun birləşdirilməsinə və verilən əşyalar çoxluğundan onun bir hissəsinin ayrılmasına aid olan praktik çalışmalar üzrə öyrədilə bilər.

İbtidai siniflərdə fənlərin tədrisi zamanı şagirdlərdə özünənəzarət bacarıqlarının formalaşdırılması onların təsəvvürünü, diqqətini, yaddaşını, təfəkkürünü, mühakiməli nitqini inkişaf etdirir, yaradıcı düşünmələrinə kömək göstərir, riyaziyyat, Azərbaycan dili, Həyat bilgisi, ana dili və s. fənlərin tədrisi metodikasını müasir təlim ideyalarına daha da yaxınlaşdırır, orta və yuxarı siniflərdə fənlərin tədrisi zamanı şagirdlərdə özünənəzarət keyfiyyətlərinin tərbiyə olunmasına, isbatlı mühakimələrin daha şüurlu, möhkəm və düzgün öyrədilməsinə zəmin yaradır.

II fəslin ikinci yarımfəsli «*Riyaziyyat təlimi vasitəsilə şagirdlərdə özünənəzarət bacarıqlarının formalaşdırılması*» adlanır. Bu yarımfəsildə müəllif əvvəl «onluq», sonra «yüzlük», sonra «minlik» və nəhayət, «çoxrəqəmli ədədlər» dairəsində hesab əməllərinin, həndəsi və cəbri materialların öyrədilməsi zamanı şagird özünənəzarətinin imkanlarını üzə çıxarır, həmin imkanların reallaşdırılmasının didaktik yollarını müəyyənləşdirir. Bu nəzarət yollarının köməyi ilə, məktəblilər, nəinki misalın həllinin düzgünlüyünü yoxlamış (özünə, öz nəticələrinə nəzarət etmiş) olurlar, eyni zamanda onlar yoxlama (özünənəzarət) prosesinin özünə nəzarət edib, səhvləri aşkara çıxarır və onlara düzəliş edə bilirlər. Nəticədə şagirdlərdə özünənəzarət prosesinin düzgünlüyünə inam yaranır. Bu riyaziyyatın tədrisi zamanı ki-

çikyaşlı məktəblilərdə yekun nəticələrin düzgünlüyünü əsaslandırmaq bacarığının da formalaşdırılmasında çox mühüm mərhələdir.

Şagirdlərə bu cür bacarıqların aşılanması və tədricən formalaşdırılması məsələ tərtibi və onların həlli zamanı da davam etdirilir. Bu zaman şagirdlərin yürütdükləri mühakimələr tərs məsələlərin tərtibinə və həllinə əsaslanır. Məlumdur ki, hər bir düz məsələyə uyğun iki tərs məsələ qurmaq mümkündür. Tədqiqat göstərdi ki, şagirdlərin əksəriyyəti verilən məsələyə uyğun yalnız bir tərs məsələ qurur, onu həll edir, alınan nəticəni (cavabı) əvvəlki məsələnin şərti ilə müqayisə edirlər. Lakin məsələnin həllinin düzgünlüyünü yalnız bir tərs məsələnin qurulması yolu ilə yoxlamaq kifayət deyildir. Bu mərhələdə məsələnin həllinin düzgünlüyünə tam nəzarət etmək (yəni, verilən məsələyə uyğun bütün tərs məsələlərin qurulması və analoji mühakimələrin aparılması yolu ilə) daha məqsədəuyğundur, çünki şagirdlər tərs məsələlərin tərtibi yolu ilə verilən məsələnin həllinin düzgünlüyünü yoxlamağı hələ sadə məsələlərin həlli zamanı öyrənmişlər. Sadə məsələlərin həlli zamanı şagirdlərə özünə, öz nəticələrinə nəzarət bacarıqlarının aşılanması metodikası burada geniş verilməsə də (dissertasiyanın həcmini süni surətdə artırmamaq xatirinə), eksperimental sinfin müəllimlərinə əhatəli və tam izah edilmişdir.

Sonda həm eksperimental, həm də kontrol siniflərdə əsas hesablama priyomları mənimsədildikdən sonra şagirdlərin özünənəzarət bacarıqları, xüsusən də təlim zamanı aldıqları nəticələrin doğruluğunu əsaslandırmaq bacarıqları həm riyazi, həm də qeyri-riyazi məzmunlu çalışmaların köməyilə yoxlanmışdır.

İkinci fəslin üçüncü yarımfəslində « *İbtidai siniflərdə ana dili və Azərbaycan dili fənləri vasitəsilə şagirdlərdə öz fəaliyyətinə nəzarət bacarıqlarının formalaşdırılması*» imkanları araşdırılır. Həm orfoqrafiya təlimində, həm də yazı vərdişlərinin aşılanması zamanı üzə çıxarılan şagird özünənəzarətinin imkan və yolları həm ümumpedaqoji, həm də metodik baxımdan yenidir. Aydındır ki, orfoqrafik vərdişlərə tam yiyələnmədən öz fikrini yazılı şəkildə düzgün ifadə etmək şagird üçün çətindir. Lakin orfoqrafiya təlimində müqayisə priyomunun köməyilə şagird özünənəzarətini təşkil etmək mümkündür. Bu iş çox vacib bir məsələ kimi müəllimlərin qarşısında durmalıdır. Bəzi müəllimlər şagird özünənəzarətini orfoqrafiya təlimində təşkil etməkdən yayınmağa çalışır və bunu işin çətin olması ilə əsaslandırırlar. Doğrudur, burada müəyyən qədər çətinlik vardır. Lakin həmin prosesdə şagird gəldiyi nəticə (verdiyi cavab) üzərində müstəqil düşünərsə, onda öz fəaliyyətinin nəticəsinə nəzarəti həyata keçirmək, onun düzgünlüyünü yoxlamaq təşəbbüsü yaranarsa, bu məqsədlə müqayisələr

apararsa, fikirlərindəki oxşar və fərqli cəhətləri düzgün tutuşdurarsa, şüurlu surətdə düzgün nəticələr çıxarar. Deməli, məktəbli yekun nəticənin doğruluğunu yoxlamaq məqsədilə öz fəaliyyəti üzərində axtarış aparmalı, bu və ya digər hadisəyə şüurlu münasibət bəsləməli, öz təfəkkürünü fəaliyyətə gətirməlidir.

Yarımfəsildə göstərilir ki, orfoqrafik təlim zamanı şagird özünənəzarətinin formalaşmasında, buraxılan səhvlərin özləri tərəfindən müəyyən edilməsi və düzəldilməsində «Orfoqrafiya lüğəti»ndən istifadə məqsədəuyğundur. Çünki imlada müəyyən sözlərin (xüsusilə yazılışı heç bir qayda ilə yoxlanılmayanların) yazılışında səhvə yol vermişlərsə, müəllim şagirdlərdən tələb edir ki, ilk addımlarda (sonradan şagirdlər bunu özləri müstəqil edirlər) səhv yazdıqları sözləri «Orfoqrafiya lüğəti»ndə tapsınlar və səhvlərini düzəltsinlər.

Dissertasiyada özünənəzarət bacarıqlarının formalaşdırılması ilə bağlı ideyalar, pedaqoji sistem şagirdlərdə müstəqil düşünmək, axtarmaq, öz yazısına tənqidi yanaşmaq, düzgün və savadlı yazmaq bacarıq və vərdişləri aşılamağa da xidmət edir.

İkinci fəslin sonuncu – dördüncü yarımfəslində *«Pedaqoji eksperimentin təşkili və nəticələri»* verilmişdir. Kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması üzrə hazırlanmış işin sisteminin səmərəliliyini yoxlamaq məqsədi ilə 2007-2013-cü tədris illərində respublikanın bir sıra şəhər və kənd məktəblərində pedaqoji eksperimentlər keçirilmişdir.

Məktəblilərin cavabları həm keyfiyyətcə, həm də kəmiyyətcə təhlil olundu. Cavabların düzgünlüyünün sadə mühakimələrlə əsaslandırılması baxımından şagirdlərin bilik səviyyələrini keyfiyyətcə daha dəqiq müəyyənləşdirmək üçün cavabları 4 qrupa bölürük. Hər qrup, ilk növbədə keyfiyyətcə məktəblilərin riyazi təlim zamanı əldə etdikləri nəticələrin (cavabların) düzgünlüyünü əsaslandıra bilmək bacarığının səviyyəsini səciyyələndirir. Şagirdlərin cavablarını və mühakimələrini qruplaşdırarkən belə bir prinsipi əsas götürürük: Şagirdlərin cavabı düzgün, onun əsaslandırılması isə tam və məntiqi cəhətdən bitkin mühakimə formasında olmalıdır.

*Birinci səviyyəli* cavablar qrupuna elə cavablar daxil edilir ki, onlar həm düşüncəli, düzgün, həm də verilən cavabın düzgünlüyü şagirdin sadə mühakimələri ilə tam əsaslandırılmış olur.

*İkinci səviyyəli* qrup elə şagirdlərin cavablarını əhatə edirdi ki, onlar öz düzgün cavablarını əsaslandırsalar da, lakin mühakimələri məntiqi cəhətdən yarımçıq və qüsurlu olur.

*Üçüncü səviyyəli* qrupa elə şagirdlərin cavabları daxil edilir ki, onlar öz nəticələrinin düzgünlüyünü aydınlaşdırmağa təşəbbüs göstərsələr də mühakimələrindəki arqumentlər (faktlar) düzgün əlaqələndirilmir. Bu halda şagirdlərin cavabları mühakiməsiz cümlələrdən ibarət olur və əldə edilən nəticələrin düzgünlüyü əsaslandırılmamış qalır.

*Dördüncü səviyyəli* cavablar qrupuna elə cavablar daxil edilmişdir ki, şagirdlər suala nə düzgün cavab verə bilr, nə də, öz cavablarının doğru olub-olmadığını əsaslandırmağa, izah etməyə təşəbbüs göstərirlər. Belə məktəblilər ya verilən suallara cavab vermir, ya səhv cavab verir, ya da suallardakı hesab əməlini və yaxud nəticəni sadəcə təkrar etməklə kifayətlənirlər. Şagirdlərin cavablarının keyfiyyətcə belə xarakterizə edilməsi onların biliklərindəki dəyişkənliyin səviyyə müxtəlifliyinin izlənilməsinə və düzgün təhlilinə imkan verir.

Eksperimental və kontrol siniflərdə şagirdlərdən alınan cavabların səviyyələr üzrə miqdari müqayisəsi də aparıldı və faiz göstəriciləri çıxarıldı. Bununla da hazırlanmış təlim metodikasının üstünlüyü müəyyən edildi.

Dissertasiyada verilən cədvəllər əyani olaraq eksperiment zamanı şagirdlərdən alınan cavabların keyfiyyətdən asılı olan miqdari göstəricilərini əks etdirir.

Eksperimentin 2006-2007-ci illər dövrü müəyyənedici dövrü olmuşdur. Bu müddətdə problemin praktik vəziyyəti və hazırlanmış metodiki üsulların dərsdə hansı nəticə verə biləcəyi öyrənilmiş, eksperimentin qoyuluşu metodikası dəqiqləşdirilmişdir.

Məlum olmuşdur ki, kiçikyaşlı məktəblilərdə təlim zamanı özünənəzarət bacarıqlarını formalaşdırmaq mümkündür. Şəhər məktəblərində keçirilmiş eksperimentin nəticəsində Gəncə şəhəri 5 nömrəli məktəbin IV siniflərində (eksperimental siniflər) Azərbaycan dili, Həyat bilgisi və riyaziyyat fənlərinin tədrisi zamanı şagidlərlə özünənəzarətlə bağlı verilən suallara 83 şagirddən 10-u birinci, 15-i ikinci, 31-i üçüncü, 27 nəfəri isə dördüncü səviyyəli, Gəncə şəhəri 28 nömrəli məktəbdə (kontrol siniflər) isə 87 şagirddən 14 nəfəri birinci və ikinci, 31 nəfəri üçüncü, 26 nəfəri isə dördüncü səviyyəli cavablar vermişlər. Kənd məktəblərindəki eksperimentin nəticəsində isə Göy göl rayonu Topal Həsənli kənd orta məktəbində (eksperimental siniflər) 51 şagirddən 3 nəfəri birinci, 10 nəfəri ikinci, 14 nəfəri üçüncü və 24 nəfəri dördüncü, Şəmkir rayonu Seyfəli kənd orta məktəbində (kontrol siniflər) isə 54 şagirddən 5 nəfəri birinci, 12 nəfəri ikinci, 16 nəfəri üçüncü, 21 nəfəri isə dördüncü səviyyəli cavablar vermişlər. Bu həm onu göstərir ki, eksperimental və kontrol siniflərdə şagirdlərin özünənəzarət bacarıqlarının səviyyələri eynidir.

Cədvəl 1

Eksperimental və kontrol sinif şagirdləri ilə aparılmış ilkin yoxlamanın nəticələri

| Məktəblər | Siniflər | | Şagird. sayı | Fənn | Cavablar (səviyyələr üzrə) | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | I | II | III | IV |
| Gəncə şəhəri 5 №li məktəb | Eksperiment | IV[a] | 28 | Azərbaycan dili | 3 (10,7%) | 6 (21,4%) | 10 (35,7%) | 9 (32,2%) |
| | | IV[b] | 29 | Həyat bilgisi | 4 (13,8%) | 5 (17,3%) | 11 (37,9%) | 9 (31,0%) |
| | | IV[c] | 26 | Riyaziyyat | 3 (11,6%) | 4 (15,3%) | 10 (38,5%) | 9 (34,6%) |
| Gəncə şəhəri 28 №li məktəb | Kontrol | IV[a] | 29 | Azərbaycan dili | 5 (17,3%) | 4 (13,8%) | 9 (31,0%) | 9 (31,0%) |
| | | IV[b] | 30 | Həyat bilgisi | 5 (16,7%) | 6 (20,0%) | 9 (30,0%) | 10 (33,3%) |
| | | IV[c] | 28 | Riyaziyyat | 4 (14,3%) | 4 (14,3%) | 13 (46,4%) | 7 (25,0%) |
| Göy göl rayonu Topal Həsənli kənd məktəbi | Eksperiment | III | 19 | Azərbaycan dili | 2 (10,5%) | 4 (21,1%) | 6 (31,6%) | 7 (36,8%) |
| | | IV[a] | 17 | Həyat bilgisi | 1 (5,9%) | 4 (23,5%) | 4 (23,5%) | 8 (47,1%) |
| | | IV[b] | 15 | Riyaziyyat | - | 2 (13,3%) | 4 (26,7%) | 9 (60,0%) |
| Şəmkir rayonu Seyfəli kənd məktəbi | Kontrol | III | 18 | Azərbaycan dili | 3 (16,7%) | 5 (27,8%) | 4 (22,2%) | 6 (33,3%) |
| | | IV[a] | 20 | Həyat bilgisi | 2 (10,0%) | 4 (20,0%) | 7 (35,0%) | 7 (35,0%) |
| | | IV[b] | 16 | Riyaziyyat | - | 3 (18,8%) | 5 (31,2%) | 8 (50,0%) |

Kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması ilə bağlı hazırlanmış metodika əsasında eksperimental siniflərdə sistemli iş aparılmışdır. Təlim prosesində özünənəzarət bacarıqlarının formalaşdırılması üzrə iş sisteminin nəzərə alınması nəticəsində eksperimental siniflərdə vəziyyət əsaslı şəkildə yüksəlmişdir. Bu nəticələr tədqiqatın elmi dəyərini bir daha sübut edir.

Nəticələr belə olmuşdur: Gəncə şəhəri 5 №li orta məktəbin 4-cü sinfində (eksperimental siniflər) Azərbaycan dili, Həyat bilgisi, riyaziyyat fənlərinin tədrisi zamanı şagirdlərə özünənəzarət bacarıqları ilə bağlı verilən suallara 83 şagirddən 27-si birinci, 31 nəfəri ikinci, 17 nəfəri üçüncü, 8 nəfəri dördüncü, Gəncə şəhəri 28 №li məktəbdə (kontrol siniflər) isə 87 şagirddən 18-i birinci, 24 nəfəri ikinci, 28 nəfəri üçüncü, 17 nəfəri dördüncü, Göy göl rayonu Topal Həsənli kənd məktəbində (eksperimental siniflər) 51 şagirddən 15 nəfəri birinci, 20 nəfəri ikinci, 9 nəfəri üçüncü, 7 nəfəri dördüncü, Şəmkir rayonu Seyfəli kənd məktəbində (kontrol siniflər) isə 54 şagirddən 10 nəfəri birinci, 17 nəfəri ikinci, 16 nəfəri üçüncü, 11 nəfəri isə dördüncü səviyyəli cavablar vermişlər.

Eksperimentin nəticələri göstərir ki, Gəncə şəhəri 5 №li orta məktəbdə ibtidai sinif şagirdlərində özünənəzarət bacarıqları ilə bağlı verilən suallara eksperimentdən əvvəl 30,1 faiz şagird birinci və ikinci səviyyəli (yuxarı) cavablar vermişdisə, eksperimentdən sonra bu rəqəm 69,9 faizə qalxmışdır. Kontrol sinifdə (Gəncə şəhəri 5 №li məktəbdə) isə müvafiq rəqəmlər 32,2 faizdən 48,2 faizə yüksəlmişdir. Eksperimental siniflərdə artım 39,8 faiz olduğu halda, kontrol sinifdə bu rəqəm cəmi 16,0 faiz olmuşdur. Kənd məktəblərində isə eksperimental siniflərdə şagird özünənəzarəti ilə bağlı verilən suallara eksperimentdən əvvəl 25,5 faiz şagird birinci və ikinci səviyyəli (yuxarı) cavablar vermişdisə, eksperimentdən sonra bu rəqəm 68,2 faizə qalxmışdır. Kontrol sinifdə isə müvafiq rəqəmlər 31,5 faizdən 50 faizə yüksəlmişdir. Eksperimental siniflərdə artım 42,7 faiz olmuşdur.

Aparılmış tədqiqatdan belə bir nəticəyə gəlmək olur ki, ibtidai sinif şagirdlərində özünənəzarət bacarıqlarını formalaşdırmaq, xüsusən də fənlərin tədrisi zamanı aldıqları nəticələrin doğruluğunu sübuta yetirməyə tələbat yaratmaq olur və bu bacarıqlar ibtidai siniflərdə təlimin keyfiyyətini yüksəldir.

Cədvəl 2

Eksperimental və kontrol sinif şagirdləri ilə aparılmış yekun eksperimentin nəticələri

| Məktəblər | Siniflər | | Şagird. sayı | Fənn | Cavablar (səviyyələr üzrə) | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | I | II | III | IV |
| Gəncə şəhəri 5 №li məktəb | Eksperiment | $IV^a$ | 28 | Azərbaycan dili | 9 (32,2%) | 11 (39,3%) | 5 (17,8%) | 3 (10,7%) |
| | | $IV^b$ | 29 | Həyat bilgisi | 10 (34,5%) | 11 (37,9%) | 6 (20,7%) | 2 (6,9%) |
| | | $IV^c$ | 26 | Riyaziyyat | 8 (30,8%) | 9 (34,6%) | 6 (23,0%) | 3 (11,6%) |
| Gəncə şəhəri 28 №li məktəb | Kontrol | $IV^a$ | 29 | Azərbaycan dili | 6 (20,7%) | 7 (24,1%) | 10 (34,5%) | 6 (20,7%) |
| | | $IV^b$ | 30 | Həyat bilgisi | 7 (23,3%) | 8 (26,7%) | 9 (30,0%) | 6 (20,0%) |
| | | $IV^c$ | 28 | Riyaziyyat | 5 (17,8%) | 9 (32,2%) | 9 (32,2%) | 5 (17,8%) |
| Göy göl rayonu Topal Həsənli kənd məktəbi | Eksperiment | III | 19 | Azərbaycan dili | 6 (31,6%) | 7 (36,8%) | 4 (21,1%) | 2 (10,5%) |
| | | $IV^a$ | 17 | Həyat bilgisi | 5 (29,5%) | 6 (35,3%) | 3 (17,6%) | 3 (17,6%) |
| | | $IV^b$ | 15 | Riyaziyyat | 4 (26,7%) | 7 (46,7%) | 2 (13,3%) | 2 (13,3%) |
| Şəmkir rayonu Seyfəli kənd məktəbi | Kontrol | III | 18 | Azərbaycan dili | 4 (22,2%) | 6 (33,3%) | 5 (27,8%) | 3 (16,7%) |
| | | $IV^a$ | 20 | Həyat bilgisi | 4 (20,0%) | 5 (25,0%) | 6 (30,0%) | 5 (25,0%) |
| | | $IV^b$ | 16 | Riyaziyyat | 2 (12,5%) | 6 (37,5%) | 5 (31,2%) | 3 (18,8%) |

Kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması üzrə işin sistemi təlim prosesində aldıqları nəticələrin doğruluğunu sübut etmək bacarıqlarının I sinifdən etibarən aşılanması ilə başlayır. Bu zaman ilk növbədə uşaqlarda çıxardıqları ilkin nəticələrin doğruluğuna şübhə oyadılmalıdır. Şübhələr müxtəlif fənlərdə müxtəlif yollarla yaradıla bilər. Məsələn, ilk riyaziyyat dərslərində şübhələr iki əşyalar qrupunun birləşdirilməsinə və ya əşyalar qrupundan onun bir hissəsinin ayrılmasına əsaslanan çalışmaların icrası zamanı oyadılır. Bu hal Azərbaycan dili dərslərində isə məlum sözlərdə hərflərdən birinin qəsdən buraxılması yolu ilə yaradılır. İlkin nəticənin doğru olub - olmaması isə çalışmaların praktik icrası yolu ilə yoxlanılır. Yoxlama prosesində alınan nəticə şübhəli nəticə ilə müqayisə edilir və onun doğru olub - olmadığı dəqiq müəyyənləşdirilir. Bu iş, 10 dairəsində əvvəlcə ədədləri tərkib hissələrinə ayıraraq toplamaq və çıxmaq qaydasına, sonra isə həmin yerdəyişmə xassəsinə əsaslanan sübuta yetirmə bacarığının şagirdlərə aşılanması ilə davam etdirilir. Aldıqları nəticələrin doğruluğunu sübut etmək bacarıqları məktəblilərdə 100-lük dairəsindəki əsas hesablama priyomlarının mənimsədilməsi prosesində formalaşdırılır. Bu prosesdə onlar müxtəlif üsullarla yerinə yetirilən hesablama priyomunun üsullarından birini digərinin nəticələrinə nəzarət vasitəsi kimi mənimsəyirlər.

Tədqiqatdan aşağıdakı **nəticələr** də alınmışdır:

1. İbtidai sinif şagirdlərinin təfəkkür və qavrayışlarının səviyyəsi təfəkkür prosesi olan özünənəzarətin şüurlu və möhkəm mənimsədilməsi üçün kifayətdir.

2. İbtidai siniflər üzrə mövcud fənn kurikulumları kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının aşılanmasına və bu bacarıqların tədricən formalaşdırılmasına imkan verır. Lakin dərslikdə şagirdlərdən aldıqları nəticələrin doğruluğuna nəzarət etməyə, onun düzgünlüyünü sübuta yetirməyi tələb edən çalışmaların və tapşırıqların miqdarını artırmağa ehtiyac vardır.

3. Kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması, o cümlədən aldıqları nəticələrin doğruluğunu sübut etməyə dair zəruri biliklərin mənimsənilmə səviyyəsi ibtidai siniflərdə təlimin qarşısına qoyulan tələblərə tam cavab vermir. İbtidai sinfi bitirən şagirdlərin böyük bir qismi özünə nəzarət etməyə, aldıqları nəticələrin doğruluğunu sübuta yetirməyə ehtiyac hiss etmirlər. Belə bir ehtiyacı duyan şagirdlərin əksəriyyəti isə aldıqları nəticələrin doğruluğunu sübut edə bilmirlər.

4. Kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması, şagirdlərə aldıqları nəticələrin doğruluğunu sübut etmək bacarıq-

larının aşılanması baxımından metodik ədəbiyyat məktəblərimizin hazırkı tələbini ödəyə bilmir.

Tədqiqatla bağlı aşağıdakılar təklif olunur:

1. Kiçikyaşlı məktəblilərdə fənlərin tədrisi prosesində aldıqları nəticələrin doğruluğunu sübuta yetirməyə tələbatın tərbiyə olunması metodikası ibtidai siniflərdə fənlərin tədrisinin ümumi metodikasına əlavə edilsin .

2. İbtidai siniflər üzrə fənn kurikulumlarını və dərsliklərin təkmilləşdirilməsi zamanı kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılmasına xidmət göstərən, şagirdlərdən öz nəticələrinin doğruluğunu sübuta yetirməyi tələb edən praktik və nəzəri çalışmaların miqdarı artırılsın. Məsələn, praktik çalışmalar hazırlıq dövründə əsas riyazi anlayışlarla və 10 dairəsində toplama və çıxma əməlləri ilə şagirdlərin ilk tanışlığına xidmət edən çalışmalardan bilavasitə sonra verilsin. «100-lük bölməsi»ndə isə əsas hesablama priyomlarının aydınlaşdırılmasına xidmət göstərən çalışmaların arasında öz əksini tapsın;

Şagirdlərdən öz nəticələrinin doğruluğunu sübuta yetirməyi tələb edən nəzəri çalışmalar dərslikdəki müvafiq bacarıqların şagirdlərdə formalaşdırılmasına kömək göstərən çalışmalarla bir yerdə verilsin. Bu çalışmaların həlli metodikası dərsliyə əlavədə izah edilsin.

3. İbtidai sinif fənlərinin tədrisi prosesində məktəblilərdə özünənəzarət bacarıqlarına tələbat tərbiyə olunması və özünənəzarət vərdişlərinin formalaşdırılması yollarına dair metodik vəsait hazırlansın və müəllimlərin istifadəsinə verilsin;

4. Kiçikyaşlı məktəblilərdə özünənəzarət bacarıqlarının formalaşdırılması, fənlər üzrə onlara öz nəticələrinin doğruluğunu sübut etmək bacarıqlarının aşılanması metodikası gündəlik təlim prosesində ibtidai sinif müəllimləri tərəfindən nəzərə alınsın;

5. İbtidai siniflərdə fənlərin tədrisi metodikasında şagirdlərdə özünənəzarət vərdişlərinin formalaşdırılması məsələsi mövcud fənn kurikulumları çərçivəsində metodik səpkidə geniş tədqiq olunsun.

Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. İbtidai siniflərdə şagird özünənəzarətinin elmi-nəzəri mahiyyəti (I məqalə) // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, 2007, № 7, s. 207-211

2. İbtidai siniflərdə şagird özünənəzarətinin elmi-nəzəri mahiyyəti (II məqalə) // Humanitar elimlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, 2008, № 1, s. 199-203

3. İbtidai siniflərdə müqayisə şagird özünənəzarətinin başlıca vasitəsi kimi // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 2008, № 2, s. 48-52

4. Orfoqrafiya təlimində şagird özünənəzarətinin təşkili imkanları // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu Elmi əsərlər, 2008, № 1, s. 82-85

5. İbtidai siniflərdə orfoqrafiya təlimi zamanı şagird özünənəzarətinin təşkili imkanları / Gəncə Dövlət Universiteti. Pedaqogika və psixologiyanın müasir problemləri, interaktiv təlim metodları və onların tətbiqi. Beynəlxalq konfransın materialları, Gəncə, 2010, s. 227 – 235

6. Şagirdlərə özünənəzarət bacarıqlarının aşılanmasının ilkin mərhələsi // Gəncə Dövlət Universiteti. Elmi xəbərlər, 2010, №3, s. 243 – 248

7. İbtidai riyazi təlim prosesində şagird özünənəzarətinin təşkili // Gəncə Dövlət Universiteti. Elmi xəbərlər. 2012 №3. s. 221 – 225

8. Формирование умения учащихся самоконтроля при изучении математики в начальном классе // Высшая школа Казахстана. Международное научно – педагогическое издание, Алматы, 2012. с. 94 – 98

9. Şagird özünənəzarətinin elmi - psixoloji əsasları // Gəncə Dövlət Universiteti. Elmi xəbərlər. 2013, №3, s. 252 – 257

10. İbtidai sinif şagirdlərində özünənəzarət bacarıqlarının formalaşdırılmasına verilən ümumdidaktik tələblər // Məktəbəqədər və ibtidai təhsil. 2014, №1.

11. Təlim prosesində ibtidai sinif şagirdlərində yazı vərdişlərinin aşılanmasında özünənəzarətin imkanları // Pedaqoji Universitet Xəbərləri. Bakı, 2014. №4

**Т.А. Джалилова**

**Система работы по формированию умений самоконтроля у младших школьников**

## РЕЗЮМЕ

Диссертационная работа посвящена исследованию формирования умения самоконтроля у младших школьников.

Диссертация состоит из введения, двух глав (каждая из которых состоит из четырех параграфов) заключение и библиографии.

В первой главе рассматривается теоритическо-практическое положение привитии умения самоконтроля (у младших школьников) учащимся во время учебного процесса. Анализируется научно- теоретическое значение самоконтроля у младших школьников. Определяются психологические особенности этой проблемы. В этой главе раскрываются педагогические возможности школьного самоконтроля.

Во второй главе рассматривается система работы по организации самоконтроля в начальных классах. В этой главе особо отмечаем применение в процессе обучения самоконтроля ученика сравнения с различными аспектами. А так же здесь говориться о формировании самоконтроля у учащихся начальных классов при изучении математики, Азербайджанского языка и «Ана созу».

Привитие учащимся начального класса умения обосновывать ДОСтоверность полученных результатов в процессе выполнения учебных (например, математических, языковых и.др.) действий начинается с сомнения в достоверности своих полученных результатов. В том числе в этой главе выявляются возможности самоконтроля учащихся начальных классов при обучении орфографического материала Азербайджанского языка. Выявленная возможность обоснована научному аспекту. Реализация выявленных возможностей впервые были определены в дидактике.

Проведенное исследование даёт основание сделать такой вывод, что можно привить учащимся начального класса умение самоконтроля при выполнении учебных, в том числе умственных действий, что качественно повышает процесс обучения в начальных классах.

Работа имеет важное научно-теоретическое значение, так как основное положение и выводы могут быть успешно использованы в более благополучном проведении очередных среднеобразовательных работ.

**T. A. Jalilova**

**Sistem of work at formation self-control skills in junior schoolchildren.**

**Summary**

The dissertation is devoted to investigate the formation of primary school children's self-control abilities.

The dissertation consists of introduction, two chapters each of which consists of four paragraphs, the conclusion and bibliography.

In chapter 1 theoretical-practical position inculcation of primary school abilities is considered. During educational process scientifically - theoretical value of children's self-control is analyzed. Psychological features of this problem are defined. In this chapter pedagogical possibilities of school self-controlling are revealed.

In the second chapter the work system is on the organization of self-control in initial classes analyzed . In this chapter especially we mark application in the course of training of the pupil's self-control in comparison with various aspects. And also this chapter deals with the formation of pupils' self-control in initial classes while studying mathematics, the Azerbaijani language and "Ana sozu".

Inculcation by the pupil of an initial class of ability to prove reliability of the received results in the process of fulfillment of educational (for example, mathematical, language and etc) actions begins with doubt in reliability of the received results. Possibilities of pupils' self-control in initial classes come to light at training of a spelling material of the Azerbaijani language in his chapter. The revealed possibility is based on scientific aspect. Realization of the revealed possibilities have been defined in didactics for he first time.

The carried out research gives the basis to draw such conclusion that it is possible to impart the pupil of an initial class ability of self-control in educational performance, including intellectual actions, that qualitatively raises training process in initial classes.

The research has an important scientific-theoretical value, thus the main results and conclusions can be successfully used in more useful conduction of further secondary school investigations.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**Тунзаля Адалят кызы Джалилова**

# СИСТЕМА РАБОТЫ ПО ФОРМИРОВАНИЮ УМЕНИЙ САМОКОНТРОЛЯ У МЛАДШИХ ШКОЛЬНИКОВ

5804.01 – Общая педагогика, история педагогики и образования

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по педагогике**

**Баку – 2014**